ədalət.-2017.-29 aprel.-S.13.

# Şair Qəşəm Nəcəfzadə ilə görüş




**Bu günlərdə Gəncə şəhəri 25 saylı tam orta məktəbdə, Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2007-ci ildə Avropada keçirilən 38-ci Beynəlxalq Poeziya Festivalının iştirakçısı, Beynəlxalq Rəsul Rza mükafatı laureatı, prezident mükafatçısı şair Qəşəm Nəcəfzadə ilə görüş keçirildi. Görüşdə şairin qələm dostlar ilə yanaşı, Gəncə şəhərinin Metodiki Mərkəzindən metodistlər, həmçinin şairin Gəncə Dövlət Universitetində oxuduğu dövrdə, auditoriyada mühazirələri bir yerdə dinlədikləri tələbə yoldaşları , məktəbin müəllim və şagird kontingenti iştirak edirdi. Görüşü, məktəbin direktoru Səmadil Əliyeva açaraq şair Qəşəm Nəcəfzdəninin həyat və yaradıcılığı haqqında geniş məlumat verdi.**

Şairin həyat və yaradıcılığına həsr olunmuş-videoçarx təqdim olundu. Sonra Səmadil müəllimə sözü Qəşəm Nəcəfzadəyə verdi. Qəşəm müəllim Nizami yurdu Gəncəyə ilk gəlişindən, oxuduğu Universitet illərindən kövrələrək danışdı:

” Mənim bu şəhərə-Gəncəyə və gəncəlilərə böyük hörmətim var. Düzü, Gəncəni tanımaq çox çətindir...Qədimliliklə yanaşı, şəhərdə aparılan yeni quruculuq işləri onun bir modern şəhər olmasını göstərir. Bütün bunlar- Ulu Öndər, Ümummilli Lider, Azərbaycan Respublikasının qurucusu və baş memarı Heydər Əliyev siyasətinin davamçısı cənab İlham Əliyevin -Gəncəyə, eləcə də gəncəlilərə xüsusi diqqət və qayğısından irəli gəlir.Buna görə, eləcə də, bu cür işıqlı və yaraşıqlı məktəblərin tikilməsi,Gəncəni, eləcə də Azərbaycanı -müxtəlif möhtərəm tədbirlərin keçirilməsində bütün dünyaya tanıtdığı üçün Prezidentimizə minnətdarlığımızı bildirirəm.”

Görüşdə Azərbaycanda elan olunmamış müharibədə, canını fəda etmiş-şəhidlər də unudulmadı...Qəşəm müəllim onlar haqqında ürək sözlərini dedi. Şəhidlərimizə- Allahdan rəhmət dilədi. Bildirdi ki, qələbə müjdəsi tezliklə eşidiləcək.

Şagirdlər şairə müxtəlif suallar ünvanladılar, şeirlərindən parçalar söylədilər, ”Sarı gəlin” və ”Çırpınırdı Qara dəniz” mahnılarını ”a capella” və gitaranın, eləcə də şairin öz dilindən eşitdikləri şeirləri -sazın ifasında dinlədilər. Şairin həyat yoldaşı kövrələrək Qəşəm Nəcəfzadəyə bir insan kimi-minnətdar olduğunu söylədi. Məktəb rəhbərliyi tərəfindən -gül dəstəsi - ona təqdim olundu. Tədbirdə iştirak edən şairlər Qərib Mehdi, Ramiz Təmkin, Ofeliya Mədətqızı, Zahid Şirani, Gülnarə Sadiq və Məhəmməd Turan şair haqqında öz ürək sözlərini söylədilər. Onlar bu görüşü təşkil etdiyinə görə məktəb rəhbərliyinə təşəkkür etdilər. Sonda xatirə şəkilləri çəkildi.

**Aytən Gumaliyeva,**
**Gəncə şəhər 25 saylı orta məktəbin**
**ibtidai sinif müəllimi**